**Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli, 467 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli, 238 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 3-cü bəndinin 5-ci abzasına “qaydalarını” sözündən sonra (ətraf mühitin mühafizəsi sahəsində statistika hesabatları istisna olmaqla)” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 yanvar tarixli, 10 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları"nın 1.11-ci bəndində "Azərbaycan ərazisinə daşınmasına" sözlərindən sonra “və ölkə ərazisindən tranzit yolu ilə aparılmasına" sözləri əlavə edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 13 sentyabr 2000-ci il**

**№ 169**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 30 sentyabr, № 9.- S. 4196.**